# Gənclərimiz, dövlət qayğısı və gələcək istiqamətlər

Deyirlər, hər bir ölkənin gələcəyi onun gənclərindən asılıdır. Bəli, gənclik təkcə macəra dolu həyat deyil, həm də sağlamlıq, enerji, tükənməyən ideyalar, işləmək əzmi, mübarizə, özünü təsdiq cəhdidir. Gənclik gələcəyin özü, böyük güc böyük arzular, böyük ümidlər və sağlam düşüncə deməkdir. Hər bir gənc bütün bunların dəyərini bilməli, ailəsi, cəmiyyəti və vətəni üçün faydalı şəxsiyyət olmağa çalışmalıdır.

Azərbaycan dövlətinin gənclər siyasəti bilavasitə gənclərin iştirakı ilə həyata keçirilir və bu siyasətin həm formalaşması, həm həyata keçilməsi mərhələsi, həm də gələcəklə bağlı planlar gənclərdən gəlir. Son dövrdə gənclərin bütün sahələr üzrə irəli çəkilməsi, məsul vəzifələrə təyin olunması dövlətimizin əsas prioritetlərindən birinə çevrilmişdir. Bu gün hətta vətəndaş cəmiyyətinin ən fəal, erotik hissəsini məhz gənclər təşkil edir. Bu da təbii ki, biz gəncləri çox sevindirir.

Hazırda respublikamızda gənclərə çox böyük qayğı göstərilir. Hər bir gəncin cəmiyyətimizdə bir fərd, şəxsiyyət olaraq inkişaf etməsi üçün bütün şərait yaradılıb. Biz gənclər də yaradılmış şəraitdən çox gözəl yararlanırıq, İstər xaricdə təhsil alma proqramları, istər daxildə həyata keçirilən müxtəlif proqramlar, gənclərə verilən ipoteka kreditləri, gənc müəllimlər üçün yaradılmış şərait və s, bunların hamısı bir daha onu göstərir ki, 1996-cı ildən ulu öndərimizin gənclərə göstərdiyi qayğını, inamı və diqqəti dövlətimiz bu gün də davam etdirir və gənclərə xüsusi diqqət yetirir. Ölkə başçısı cənab İlham Əliyevin peşə təhsilinə göstərdiyi qayğı və diqqətin nəticəsində son illərdə bu təhsil müəssisələrində artıq fəhlə kadrları yox, yeniləşməkdə olan iqtisadiyyatın tələblərinə uyğun usta və sənətkarların hazırlanması işi aparılmağa başlamışdır. Odur ki, bu gün peşə təhsili müəssisələri qarşısında qoyulan ümdə vəzifələrdən biri yüksək ixtisas dərəcəsinə malik olan rəqabətqabiliyyətli sənətkar hazırlığına nail olmaqdır. Biz də məktəbin bütün kollektivi ilə birgə dərs dediyimiz şagirdlərin cəmiyyətimizə yararlı vətəndaş kimi yetişməsi üçün əlimizdən gələni əsirgəmirik.

Bizim məktəbdə təhsil alan şagirdlərin yaş həddi 15 yaşdan başladığı üçün və bu da təbii ki, yeniyetməliyin ən enerjili, çılğın və əzmli çağlarına, gəncliyin astanasına təsadüf etdiyi üçün onlar üzərində təsir gücümüzün daha çox olduğuna inanır və şagirdlərimizin uğurlu gəncliyə doğru inamla addımlamasına şərait yaradırıq.

Son illər dövlətin peşə təhsilinə göstərdiyi qayğı və diqqətin nəticəsidir ki, Qəbələ rayonunda müasir standartlara cavab verən və günün tələblərinə uyğun yeni peşə məktəbinin tikintisi aparılır. Bunun üçün biz gənclər ölkə başçısına və rayon rəhbərliyinə öz minnətdarlığımızı bildiririk. Bu məktəbin tikintisi biz gənclərə göstərilən qayğının əsl təcəssümüdür. Bütün bunları əsas tutaraq məktəbimizə qəbul üçün müraciət edənlərin sayı ilbəil artmaqdadır. Belə ki, bu il məktəbdə 160 şagird təhsil alır, onlardan 150 nəfərini məhz gənclər təşkil edir. Bildiyimiz kimi bu gün bacarıqlı kadra hər yerdə ehtiyac var. Elə bu baxımdan da Qəbələ Peşə məktəbi yeni təlim metodlarına əsaslanaraq fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışır. İndi qarşımızda daha aktual bir məsələ dayanır. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni müstəvidə yeni dövrə uyğun gənclər siyasətini tam dəstəkləmək üçün gərək var qüvvəmizi əsirgəməyək. Xüsusilə, dünyanın qlobal böhranla üzləşdiyi bir zamanda ölkəmizi bu böhrandan daha az itkilərlə vəziyyətdən çıxarmağa çalışaq. İnanıram ki, məktəbimizin pedaqoji kollektivi və ustalarımız əvvəlki illərdə də olduğu kimi bu vəzifənin öhdəsindən layiqincə gələcəklər. Bunun üçün biz müəllimlər gənc nəslin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik prinsipləri əsasında Azərbaycan xalqının tarixi-mədəni irsinə və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmasına çalışacağıq.

**Əfsanə XƏLİLOVA,**
**Qəbələ Peşə məktəbinin müəllimi.**

# Qoşqar Qaraçaylının kitab təqdimatı

Hər il olduğu kimi, bu il də fevralın 2-də Qəbələ Rayon Mərkəzi Kitabxana Sisteminin mərkəzi kitabxanasında Gənclər Günü qeyd olunmuşdur. Tədbirdə fəal gənc oxucularımız və gənc şair Qoşqar Qaraçaylı iştirak etmişdir. Bu ilki tədbir əvvəlki tədbirlərdən fərqli olaraq gənc şair Qoşqar Qaraçaylının kitab təqdimatı ilə yadda qaldı. Tədbiri MKS-nin direktoru R. Mirzəyev açdı.

Daha sonra kitabxananın işçiləri Gülnar Dadaşlı, bu sətirlərin müəllifi çıxış etdilər. Tədbiri xidmət şöbəsinin müdiri Məlahət Qayareva davam etdirərək iştirakçıları salamladı. Bütün gəncləri 2 fevral—Gənclər Günü münasibəti ilə təbrik etdi. Sonra gənc şair və fəal oxucumuz Qoşqar Qaraçaylının «Sevgi nağılı» kitabını və şairə Gülnarə İsrafilqızının redaktorluğu ilə çap olunmuş «Zərrələr» antologiya kitabını kitabxanaya hədiyyə etdiyi üçün şairə təşəkkürünü bildirdi.

Söz şair Qoşqar Qaraçayliya verildi. O, gənclərimizi fəal olmağa, ümidsizliyə qapılmamağa, həmişə iradəli olub irəliləməyi arzuladı. Şair öz şeirlərindən parçalar söylədi.

Tədbirdə şair Cəlil Komradlı da çıxış etdi. O, gənclərə aid yazdığı şeirini tədbir iştirakçılarına söylədi.

Tədbir diskussiya şəklində davam etdirildi. «Qızıl alma» gənclər cəmiyyətinin üzvü İbrahim Muradov gəncləri vətənə, ailəyə, cəmiyyətə önəmli şəxsiyyətlər olmağa çağırdı. Gənc şair Qoşqar Qaraçaylıya da yaradıcılıq uğurları arzuladı.

**Günel Qarayeva.**

# Şəhər 4 saylı tam orta məktəbin 50 yaşı tamam oldu

Cəmiyyətin inkişafının bütün mərhələlərində məktəb ziya, işıq, nur paylayan məbədgah, müəllimlər isə bu missiyanın daşıyıcıları hesab olunublar. Bu, ilahi bir missiyadır. Müəllimin, tərbiyəçinin əməyi Allahın xəlqetmə dühasının davamıdır. Məşhur ərəb mütəfəkkiri İbn Əl Müqəffə yazırdı: «Hava və qidadan sonra vicudumuzun ən çox tələb etdiyi üçüncü şey təhsil və tərbiyədir». İnsanın tərbiyəsi onu şəxsiyyət kimi formalaşması, kamilləşməsi,əqlinin ruhunun və cisminin bərabər səviyyədə inkişafı müəllimlərdən asılıdır.

Müəllim təhsildə əsas sima ən nüfuzlu şəxsdir. Müəllim əməyini əsl vətənpərvərlik nümunəsi hesab edirlər. Belə bir obrazlı ifadə var ki, müəllim dəyişəndə cəmiyyət də dəyişir. Lakin bütün müəllimlər belə bir nümünə göstərmək, cəmiyyəti dəyişmək gücündədirlərmi? Onların hamısı cəmiyyətdə nüfuz, hörmət və ehtiram sahibidirlərmi? Təcrübə göstərir ki, işlədiyi məktəbdə nüfuz qazana bilməyən müəllimin cəmiyyətdə də hörməti və nüfüzü yoxdur.

Cəmiyyət müəllimə borclu olduğu kimi, müəllim də cəmiyyət qarşısında öz borcunu, məsuliyyətini hiss etməlidir. Bu mənada ictimai rəy hər bir müəllimin güzgüsü, məhək daşıdır. Nahaq yerə demirlər ki, hər öyrədən müəllim deyil, o kəs müəllimdir ki, ondan öyrənirlər. Həm də o müəllim yaxşı öyrədə bilər ki, onu yaxşı öyrədiblər.

Qəbələ şəhər 4 saylı tam orta məktəbi 1965-ci ildə əvvəlcə internat məktəbi kimi fəaliyyətə başlamış, bu gün Qəbələ şəhər Nicat Apayev adına 4 saylı tam orta məktəbi kimi işini davam etdirir.

Məktəb yaranandan bu günə kimi aşağıda adları qeyd olunan müəllimlər bu təhsil ocağına rəhbərlik etmişlər.

1. Rəsulov Kərəm Bayram oğlu: ixtisası—ingilis dili müəllimi (1965—1968).
2. Bağıyev Ağasəf Əli oğlu: ixtisası—tarix-coğrafiya müəllimi. Əməkdar müəllim (1968—1969).
3. Əsədov Rüstəm Qəhrəman oğlu: ixtisası tarix müəllimi (1969—1976).
4. Vahibov Vaqif Mustafa oğlu: ixtisası-dil-ədəbiyyat müəllimi (1976—1977).
5. Seyidov Fərrux Srac oğlu: ixtisası—riyaziyyat müəllimi (1977—1979.
6. Həsənov Ağali Soltan oğlu: ixtisası—rus dili müəllimi (1979—1984).
7. Aslanov Qüdət İsgəndər oğlu: ixtisası—riyaziyyat müəllimi (1984—2006).
8. Əzizli Fərman Məhəmməd oğlu: ixtisası—sinif müəllimi, əmək hazırlığı. Əməkdar müəllim (2006—2012).
9. Musayeva Qəşəngi Əlibala qızı: ixtisası—sinif müəllimi (2012—hal-hazıradək)

Bu təhsil ocağında uğurlu addımlar göz önündədir. Təhsilin yeni məzmunu yeni dərslik və yeni qiymətləndirmə sistemi müasir dövrün labüd reallığıdır. Burada hər bir müəllim şagirdə şəxsiyyət kimi baxır, onlara daha məqsədli yanaşılır. İstedadla elm bir-birinə qovuşanda əsil fəaliyyət özünü göstərir. Elə bunun nəticəsidir ki, öz fəaliyyətinə, sanbalına görə Qəbələ şəhər 4 sayl tam orta məktəbin öz yeri, öz nüfuzu vardır. Hazırda Qəbələ təhsilinə öz uğurları ilə imza atan məktəblərdən biri də bu təhsil ocağıdır. Məktəbdə 154 müəllim, 893 şagirdin təlim tərbəyəsilə məşğul olur. Ötən tədris ilində 73 məzundan 53-ü ali məktəblərə qəbul olunmuşdur. Bu da 72,6 faizə yaxındır. Məktəbdə fəaliyyət göstərən 154 nəfər müəllimdən əksəriyyəti öz işlərini yüksək səviyyədə qurmuş, müvafiq təhsil sisteminin tələblərinə tam cavab verirlər.

Məktəb Mıxlıqovaq kəndində dünyaya göz açmış, 1989-1990-cı dərs ilində bu məktəbi bitirmiş Nicat Şakir oğlu Apayevin adını dışıyır. Vətənini canından çox sevən Nicat torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Mərd eloğlumuz heç zaman unudulmur. Məktəbdə onun döyüş yoluna aid tez-tez tədbirlər keçirilir, foto-stend və bülletenlər buraxılır.

Yetirmələri hər vaxt məktəbin, onun müəllimlərinin başını uca edir. Bunlar ağır zəhmətin bəhrəsidir. Müəllimlərin zəhmətinin nəticəsidir ki, məzunlar uğur qazanırlar. Elə buna görə də məktəbin adı qabaqcıllar sırasında cəkilir.

*Bu gün ad günündür doğma məktəbim,*
*Ucal şən göylərə, ucal məktəbim,*
*Sənsən yarım əsrin yanan ocağı.*
*Baxıb fəxr edirəm qürurla sənə,*
*Sənsən həyatımın sönməz çırağı.*

*Şöhrətin dolaşdı eli-obanı,*
*Bu vaxt qəlbimizə min sevinc doldu.*
*Ötən əlli ildə keçən o anlar*
*Tarixə bir qızıl xətlə yazıldı.*

**Fərman ƏZİZLİ,**
**Əməkdar müəllim.**